# Azərbaycan milli maraqlarını layiqincə təmin edir

**44 günlük müharibədə Ermənistanı hərb meydanında məğlub edən Azərbaycan postmüharibə dövründə də milli maraqlarını beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ardıcıllıqla və qətiyyətlə həyata keçirir.**



Ölkəmiz 2023-cü il aprelin 23-də Laçında sərhəd nəzarət-buraxılış məntəqəsi quraraq bütün sərhədləri boyu üçrəngli bayrağımızı dalğalandırıb suveren ərazilərimizin bütövlüyünü təmin etmiş və bununla da daha bir tarixi qələbəyə parlaq imza atmışdır.

Avqustun 26-da təntənə ilə keçirilən Laçın Şəhər Günü münasibəti ilə bayram tədbirində Prezident İlham Əliyev bu möhtəşəm qələbə ilə bağlı dünyaya bir daha bildirdi ki, ölkəmiz öz sərhədlərini əbədi bərpa edib: "Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik".

## Məqsəd təhlükəsizliyə nəzarətin təmin edilməsidir

Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması Vətən müharibəsindəki zəfərdən sonra Azərbaycanın əldə etdiyi böyük hərbi-siyasi qələbə oldu.

Suveren ərazimizdə beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq təsis edilən sərhəd nəzarət-buraxılış məntəqəsi bu yoldan qeyri-qanuni istifadəyə birdəfəlik son qoydu.

Bu il iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) Ermənistanın Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd etdi. BƏM Azərbaycanın Ermənistanla şərti dövlət sərhədlərində nəzarət-buraxılış məntəqəsini qurmaqla bağlı beynəlxalq normalar əsasında suveren hüquqa malik olduğunu rəsmi tanıdığını, ölkəmizin beynəlxalq hüququn prinsipləri çərçivəsində həyata keçirdiyi milli maraqlarını qəbul etdiyini təsdiqlədi. 2023-cü il mayın 1-də ABŞ-nin Dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan-Ermənistan sərhədində Laçın nəzarət-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib: "Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir".

Dövlət başçısı telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağını qeyd etdi.

## Bu yol erməni separatçılarının üzünə həmişəlik bağlıdır

Lakin ölkəmizin beynəlxalq hüquqa dayanaraq atdığı bu addım işğal dövründə, eləcə də 44 günlük müharibədən sonra Laçın yolu ilə separatizmə dəstək göstərən, qanunsuz silah-sursat daşıyan, Azərbaycana qarşı təxribatlar törədən Ermənistan və onun xarici himayəçilərinə xoş gəlmədi. Sözügedən tarixdən etibarən Laçın yolunun yalnız mülki ermənilərin keçidi üçün açıq olması xəstə ideyalı erməni lobbisinə, onun yalı ilə dolanan bəzi qərəzli xarici ölkə və qurumlara, Azərbaycana qarşı ərazi iddiası güdməkdən əl çəkməyən təcavüzkar Ermənistana sərf etmədi. Çünki onlar ömür boyu bu yolla separatizmə əl uzadacaqlarını, Azərbaycanın suveren ərazilərində hərbi xuntanın at oynadacağını düşünürdülər və planlayırdılar.

Amma murdar niyyətləri ürəklərində qaldı. Vətən müharibəsində Azərbaycan cəmi 44 gün ərzində Ermənistana və onun beynəlxalq havadarlarına başa saldı ki, bu torpaqların əzəli sahibləri azərbaycanlılardır. Eyni zamanda Həkəri çayının üzərində Laçın sərhəd-buraxılış məntəqəsi təsis etməklə ölkəmiz isbat etdi ki, suveren ərazilərində onun razılığı olmadan hətta quş da səkə bilməz, nəinki erməni separatçıları özbaşına gəzələr.

## Ermənilərin oynadıqları məzlum rolları

Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Qarabağ bölgəsindən silahlı tör-töküntüləri ni hələ də çıxarmayan və separatçılara dəstək duran Ermənistan xarici himayədarlarının köməyi ilə "B" planını, yəni "humanitar fəlakət" adı altında növbəti yalan və fitnəkarlıqlarını işə salıb. Laçın yolunun guya blokadada olması barədə uydurmalar irəli sürüb.

Halbuki təkcə cari il sentyabrın 16-da səhər saatlarında verilən məlumata əsasən, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) əməkdaşlarının müşayiəti ilə Xankəndi-Gorus istiqamətində Laçın sərhəd-buraxılış məntəqəsində erməniəsilli şəxslərin sərbəst keçidi növbəti dəfə təmin edilib. BQXK-ya məxsus ümumilikdə 7 nəqliyyat vasitəsi bu məntəqədən keçib. Həmin nəqliyyat vasitələrinin içərisində BQXK-nın üzvləri, sürücülər, tibb işçisi, 8 xəstə, 7 müşayiətçi kimi ümumilikdə 25 nəfər olub. Yəni yol mülki erməni vətəndaşların üzünə açıqdır və heç bir blokadadan söhbət belə gedə bilməz.

Digər tərəfdən ermənilər dünyaya hay salıblar ki, Xankəndidə "aclıq" yaşanır. Amma Azərbaycan Qızıl Aypara Cəmiyyətinin göndərdiyi 40 ton unu hələ də qəbul etməyərək özləri sübut edirlər ki, ac filan deyillər və bu, sadəcə dünyaya oynadıqları növbəti məzlum rollarıdır.

Ermənilərin "yazıq", "məzlum", "zavallı" obrazlarını həvəs və istedadla canlandırmaları isə hər kəsə bəllidir.

Göründüyü kimi, Ermənistan tərəfi sülhdən yayınmaq, bölgədə gərginlik yaratmaq üçün ölkəmizə qarşı təxribatlara əl atır. Sərhəd mövqelərimizi atəşə tutur, fortifikasiya qurğuları quraşdırmağa cəhdlər edir, dünyada ölkəmizə qarşı çirkin təbliğat kampaniyası aparır və sair.

Amma bunlar heç bir nəticə vermir. Böyük əzm və iradə ilə milli maraqlarını ardıcıllıqla təmin edən Azərbaycan dövləti suverenliyini, ərazi bütövlüyünü təhdid edən, təhlükəyə atan istənilən fəaliyyətin qarşısını qətiyyətlə alıb və bundan sonra da alacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 17 sentyabr.- S.7.